**Şəfiqə Səfər qızı MƏMMƏDOVA**
Sumqayıt Dövlət Universitetinin Dünya
iqtisadiyyatı və marketinq kafedrasının dosenti
AZ 5008, Azərbaycan Respublikası, Sumqayıt şəhəri, 43kvartal
ORCID: 0000-0003-0635-577X

# MÜASİR DÖVRDƏ MİLLİ SƏRVƏTİN QİYMƏTLƏNDİRİLMƏSİ ƏNƏNƏLƏRİ

**Xülasə**

**Tədqiqatın məqsədi.** Milli sərvət cəmiyyətin malik olduğu təbii resursların təkrar istehsalı proseslərində cəlb edilən, cəmiyyət tərəfindən bütün tarixi inkişaf dövründə insan əməyilə yaradılan maddi-mənəvi,təbii, həncinin qeyri-maddi nemətlərin məcmusu olduğundan, milli sərvət istənilən ölkənin gücünü və potensial imkanlarını müəyyən edir. Bu mənada onun müasir metod və ənənələr əsasında düzgün qiymətləndirilməsinin tədqiqinin böyük əhəmiyyəti vardır. Məqalədə ölkənin milli sərvətinin qiymətləndirilməsinin müasir ənənələri, o cümlədən BMT-nin Statistika Komissiyası və Dünya Bankının milli sərvətin dəyərləndirilməsi istiqamətləri araşdırılmışdır.

**Tədqiqatın metodu** kimi bir sıra elmi metodlardan təhlil, müqayisə, statistik, iqtisadi umumiləşdirmələrdən istifadə edilmişdir. Eyni zamanda bu istiqamətdə beynəlxalq təskilatların müasir konsepsiyalarına müraciət olunmuşdur.

**Tədqiqatın nəticələri** müasir dövrdə makroiqtisadi proseslərin və sosial-iqtisadi inkişafın tənzimlənməsində, həmcinin davamlı inkişafın təmin ounmasında ölkənin milli sərvətinin dəyərləndirilməsilə əlaqədar olaraq faydalı ola bilər.

**Açar sözlər:** milli sərvət, qiymətləndirmə, adambaşına milli sərvət, metod, Dünya Bankı konsepsiyası, millətlərin dəyişən sərvətləri.

**UOT:** 330
**JEL:** EO1; P46
**DOI:** 10.54414/KWZK7246

## Giriş

Milli Sərvət (MS) – ölkənin iqtisadi potensialının və vəziyyətinin, millətin rifahının ən ümumi inteqral göstəricisi olmaqla, iqtisadi artımın əsas faktorlarını xarakterizə edir. ÜDM, milli gəlir və nəticədə MS-lə birbaşa bağlı olan iqtisadi artım ölkədə real həyat səviyyəsini yüksəltməklə, cəmiyyətə təqdim olunan ictimai nemətlərin həcmini artırır. Deməli, MS iqtisadi inkişafın bazası və eyni zamanda onun nəticəsidir. MS-nın strukturu, həcmi, keyfiyyəti, onun səmərəli istifadəsi və düzgün qiymətləndirilməsi ölkənin iqtisadi və sosial inkişafının səviyyə və keyfiyyətini, nəticədə bütövlükdə milli iqtisadiyyatın rəqabətqabiliyyətini müəyyən edir [1]. MS əmtəələrin istehsalına imkan verən xidmətlərin göstərilməsini və insanların həyatını təmin edən ölkənin bütün aktivlərinin cəmi olmaqla yanaşı, hər bir dövlətin davamlı iqtisadi inkişafının əsası və nəticəsi olduğundan, MS-nin tərkibinin strukturunun düzgün müəyyən edilməsinin və bu struktura uyğun onun tam və obyektiv qiymətləndirilməsi vacib və aktual məsələlərdən hesab edilməlidir. Bu məqsədlə, müasir dövrdə MS-nin qiymətləndirilməsi ənənələrinin həm nəzəri və həm də praktiki şəkildə ümumiləşdirilməsinə və dəyərləndirilməsinə ehtiyac vardır. Bütün bunların nəticəsində də MS-nin qiymətləndirilməsi problemlərini və nəticələrini aşkarlamaq mümkündür. Ölkənin MS-nin həcmini müəyyən etmək aşağıdakıları aşkarlamağa imkan verir: 1)Müəyyən zaman anında milli iqtisadiyyatda mövcud olan əmtəə və xidmətlərin məcmusunu göstərən nemətlərin həcminin müəyyən edilməsi. 2) Ölkədəki iqtisadi artıma əhəmiyyətli dərəcədə təsir göstərən təbii resurs potensialının məcmu həcminin aşkarlanması.3) Milli iqtisadiyyatın qeyri-maddi resurslarının kompleks uçotunun həyata keçirilməsi imkanlarının

mümkünlüyü və 4) Ölkənin maliyyə potensialının və davamlı inkişaf strategiyasının müəyyən edilməsi.

Göründüyü kimi, MS ölkənin kompleks iqtisadi göstəricisi olduğu üçün o, bütövlükdə ölkənin əmlak, xidmət, təbii resurs və qeyri-maddi potensialını, maliyyə və rəqabət qabiliyyətini əks etdirir. Ölkənin rəqabət qabiliyyətini isə öz növbəsində məhz onun insan resurslarıl və insan kapitalı (İK), sosial kapital, intellektual mülkiyyət hüquqları və digər qeyri-maddi aktivləri müəyyən edir. Bu mənada MS çox əhatəli statistik göstəricilərlə xarakterizə olunur. MS-nin bütövlükdə özü və onun adambaşına düşən həcmi ölkənin sosial iqtisadi inkişafının əldə edilən səviyyəsini göstərir.

Xarici statistikada əksər ölkələrin MS-nin qiymətləndirilməsi zamanı aşağıdakılar nəzərə alınır: qeyri-maliyyə istehsal aktivləri (əsas fondlar, maddi dövriyyə ehtiyatları və dəyərliləri), qeyri-istehsal ehtiyatları, o cümlədən maddi ehtiyatlar (torpaq, faydalı qazıntı ehtiyatları, təbii, bioloji və yeraltı sular), qeyri-maddi aktivlər (İK, kəşflərin istifadəsi üçün lisenziyalar, nou-hou, ötürülən müqavilələr, alınan qudvillər və s.), maliyyə aktivləri (monetar qızıl, valyuta, səhmlər, sənaye kompaniyalarınınn səhmləri, dövlət istiqraz kağızları, xarici ölkələrin borcları və s.). Beləliklə, verilən strukturda MS-i ölkənin iqtisadi aktivlərinin onun maliyyə öhdəliklərinin dəyəri qədər azaldılmış məcmusu kimi təyin etmək olar. Bütün əvvəldə qeyd edilənləri nəzərə alaraq fikrimizcə, MS-ə onu tam mənada izah edən aşağıdakı anlayışı verərək məqsədli hesab oluna bilər:

**Milli sərvət** – çox geniş aspektli iqtisadi kateqoriya kimi verilən ölkənin müəyyən dövrə rezidentlərinin ölkə ərazisində və ya xaricdə yerləşən bütün maddi (istehsal olunan və təbii aktivlər) və qeyri-maddi (insan və sosial kapital), maliyyə iqtisadi aktivlərin (maliyyə aktivləri və alətləri) həm rezident və həm də qeyri-rezidentlərə olan maliyyə öhdəlikləri çıxılmaqla, mövcud bazar qiymətlərində olan məcmu dəyəri və iqtisadi potensialıdır. Deməli, MS-nin maddi, təbii və qeyri-maddi, həmçinin maliyyə sərvətlərindən təşkil olunduğunu qeyd etmək mümkündür. Bütün bunlar da MS-nin qiymətləndirilməsinin əsasını təşkil edir.

Son dövrlərdə iqtisadçılar və iqtisadi qurumlar tərəfindən MS-nin qiymətləndirilməsinin metodoloji və informasiya problemlərinə diqqət artmışdır. MS-nin qiymətləndirilməsinə iki fərqli mövqedən yanaşmaq olar [2]: 1) MS-nin cəmiyyətə faydalı olmaq nöqteyi-nəzərindən və 2) MS-nin dəyəri dar mənada iqtisadi fəaliyyətin aparılması çərçivəsində müəyyən oluna bilər. MS-nin cəmiyyətə faydalı olması məhz onun qiymətləndirilməsi və uçotunu zərurətə çevirir. Adətən belə qiymətləndirmə bu və ya digər maddi və ya qeyri-maddi obyektin yaradılmasına çəkilən xərclərə görə həyata keçirilir. Əlbəttə, MS-nin cəmiyyət tərəfindən yaradılmayan, ancaq təbiətdən əldə edilən hissəsinin uçotunun aparılması zərurətini də unutmaq olmaz. Deməli, cəmiyyətə faydalı olmaq nöqteyi-nəzərindən MS-nin pul formasında qiymətləndirilməsi bir sıra obyektiv səbəblər, çətinliklər və problemlərlə bağlı olur. Qiymətləndirmədə əsas kriteriya MS-nin və onun tərkib elementlərinin dəyərinin bazar və ya investisiya xarakterli olması ilə əlaqədardır. Bazar qiymətləndirilməsi nisbətən obyektiv xarakter daşıyır. Belə ki, MS-nin bu cür hesablanmış dəyərində obyektin qiyməti bütövlükdə bazar üçün təsəvvür yaradır. İnvestisiya dəyəri isə subyektiv xarakterlidir. Bu, konkret investor üçün mülkiyyət obyektinin dəyəri haqda təsəvvür yaradılması ilə bağlıdır. MS-nin belə qiymətləndirilməsi bazar dəyərilə üst-üstə düşməyə də bilər.

Bütün bunlara əsasən qeyd etmək lazımdır ki, MS-nin onun tərkib elementləri əsasında qiymətləndirilməsinə, əsasən aşağıdakı yanaşmaları fərqləndirirlər: müqayisə, xərc, gəlir-renta və bazar qiymətləri yanaşması. Xərclər və gəlirlər metodunun müqayisəsi əsasında stabil şəraitdə MS-i dəyərləndirmək daha səmərəli metod kimi müəyyən edilmişdir. Müqayisə metodu ilə qiymətləndirmə əsasında analoqu olan obyektin artıq bazar tərəfindən qiymətləndirilmiş və başa çatmış sövdələşmə haqqındakı informasiya əsasında olan dəyər durur. Xərclər metodu obyektin yaradılması üçün qoyuluşların hesablanmasının ideyası əsasında reallaşdırılır. Gəlir-renta yanaşması isə qiymətləndirilən obyektdən nə qədər gəlir əldə etmək mümkündürsə, onun əsasında hesablanır. Bu zaman obyektə sahib olmanın bütöv müddəti və risklər nəzərə alınır.

Beləliklə, gəlirlər metodu unikal obyektlərin qiymətləndirmə problemini aradan qaldırır. Ancaq bu yanaşma ehtimal xarakterlidir, daha doğrusu o, proqnozlaşdırılan gələcək gəlirləri və riskləri nəzərə alır. Bazar qiymətləri əsasında dəyərləndirmədə gəlirlər, xərclər, müqayisə haqqında məlumatların olmadığı hallarda həyata keçirilə bilər. MS-nin qiymətləndirilməsinə olan bu yanaşmaların özünə məxsus zəif və güclü tərəfləri, həmçinin bir çox problemləri mövcuddur. Onları aşağıdakı struktur sxemin köməyi ilə qeyd etmək mümkündür (şəkil 1).

**Müasir dövrdə milli sərvətin qiymətləndirilməsinin Dünya Bankı konsepsiyası**

Müasir dövrdə dünya ölkələri, o cümlədən Azərbaycan üzrə MS-nin qiymətləndirilməsi ənənələrini əsasən BMT-nin Statistika komissiyasının hazırladığı MHS-2008-ə söykənən Dünya Bankının (DB) nəşr etdiyi hesabatlara əsasən müəyyən etmək mümkündür. Belə ki, dünya üzrə MS-nin struktur tərkib elementlərinin orta dinamikasına (1800-2015-ci illər üzrə) nəzər yetirsək, XIX əsrdən XXI əsrin əvvəllərinə qədər olan uzun müddətli əhəmiyyət kəsb edən dövrlərdə təbii və istehsal kapitalının MS-də payının azaldığını (uyğun olaraq 50%-dən 12%-ə və 30%-dən 20%-ə), əksinə İK-nın xüsusi çəkisinin xeyli artdığını (20%-dən 78%-ə) qeyd etmək mümkündür. Əlbəttə, bu ənənə xüsusilə inkişaf etmiş ölkələrin iqtisadiyyatında baş verməkdədir (cədvəl 1).

Dünyanın bütün iqtisadçıları tərəfindən MS kimi mürəkkəb kateqoriya ilə bağlı daimi olaraq tədqiqatların aparılmasına baxmayaraq, onun və ümumi dünya sərvətinin qiymətləndirilməsilə bağlı ümumi bir fikir ortaqlığı və metodologiya yaranmamışdır. Dünya ölkələrinin MS-nin miqdarı və strukturu regionlar və ölkələr üzrə əhəmiyyətli dərəcədə fərqlənir. DB-nin bu istiqamətdə tədqiqatları adambaşına düşən MS göstəricilərinin hesablanması ilə bağlı olmuşdur [3] (cədvəl 2)

Cədvəlin məlumatlarından göründüyü kimi, kasıb və orta gəlirli ölkələrdə məcmu sərvətdə istehsal kapitalı ilə qeyri-maddi aktivlərin payı eyni olmuşdur, kasıb ölkələrdə isə bir qayda olaraq TR-nin xüsusi çəkisi daha yüksəkdir.

**Cədvəl 1**

**Dünya üzrə milli sərvətin strukturunun orta dinamikası, %-lə**

| **Milli sərvətin strukturunun orta dünya göstəriciləri** | **İllər üzrə milli sərvətin strukturu** | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | **1800** | **1860** | **1913** | **1950** | **1973** | **1998** | **2015** |
| Təbii kapital | 50 | 45 | 35 | 20 | 18 | 16 | 12 |
| İstehsal kapitalı | 30 | 33 | 33 | 32 | 26 | 19 | 20 |
| İnsan kapitalı | 20 | 22 | 32 | 48 | 56 | 65 | 78 |

**Mənbə:** URL: yandex.ru/yandsearch?clid=95823&text= [4]

Dünya üzrə statistik məlumatlara əsasən dünya sərvətinin 50%-i QA ölkələrinə, ABŞ, Kanada və Yaponiyaya aiddir. XXI əsrin əvvəllərinə ABŞ-ın MS-i 24 trlyn $, dünya neft ehtiyatlarının 40% və dünya neft qiymətlərinə nəzarət edən OPEC qrupu ölkələrinin MS-i isə cəmi 95 trlyn $ dəyərləndirilmişdir. MDB ölkələri isə ümumilikdə 80 trlyn $ MS-ə malik olmuşlar. MDB ölkələri arasında ən böyük MS-ə malik Rusiya Federasiyasının MS-i XXI əsrin əvvəllərinə 60 trlyn $ təşkil etmişdir (cədvəl 3) [4, s.64]. Müasir dövrdə dünya üzrə və həmçinin ölkələrin MS-i üzrə inkişaf ənənələrinin əks olunduğu DB-nin 2006-cı ildə nəşr etdirdiyi birinci: "Millətlərin sərvətləri haradadır? 21 əsr üçün kapitalın ölçülməsi" (Where is the Wealth of Nations? Measuring the Capital for the 21st Centry, 2006) adlı baza hesabatında [6] yuxarıda qeyd edilənlərlə yanaşı, dünyanın regionları və daha dəqiq gəlir qruplarının bölgüsü üzrə adambaşına düşən məcmu sərvət və MS-nin tərkibini təşkil edən müxtəlif kapital növlərinin sərvətdə xüsusi çəkisi müqayisəli şəkildə təhlil olunmuşdur. Dünya üzrə statistik məlumatlara əsasən dünya sərvətinin 50%-i QA ölkələrinə, ABŞ, Kanada və Yaponiyaya aiddir. XXI əsrin əvvəllərinə ABŞ-ın MS-i 24 trlyn $, dünya neft ehtiyatlarının 40% və dünya neft qiymətlərinə nəzarət edən OPEC qrupu ölkələrinin MS-i isə cəmi 95 trlyn $ dəyərləndirilmişdir. MDB

ölkələri isə ümumilikdə 80 trlyn $ MS-ə malik olmuşlar. MDB ölkələri arasında ən böyük MS-ə malik Rusiya Federasiyasının MS-i XXI əsrin əvvəllərinə 60 trlyn $ təşkil etmişdir (cədvəl 4) [4, s.64]. 2011-ci ildə DB-nin MS sahəsində ikinci yeni tədqiqat işi "Millətlərin dəyişən sərvəti: yeni minillikdə dayanıqlı inkişafı ölçməklə" (The Changing Wealth of Nations: Measuring Sustainable Development in the New Millennium Centry) adlanır [7]. Bu tədqiqatda DB tərəfindən dünyanın 152 ölkəsinin MS-nin və onun tərkib hissələrinin hesablanması və tədqiqi 1995, 2000 və 2005-ci illər üzrə həyata keçirilmişdir. Bu məruzəyə əsasən DB bütün ölkələrin MS-ni 673,6 trlyn ABŞ dolları həcmində dəyərləndirmişdir. Bu göstərici 1995-ci ilə görə (504,5 trlyn $) təxminən 170 trlyn $ artıqdır. Dünya üzrə adamaşına MS 120,5 $ təşkil etmişdir .

| Sıra sayı | Müasir dövrdə milli sərvətin qiymətləndirilməsi metodlarının qısa xarakteristikaları | | |
|---|---|---|---|
| | **Metodların adları** | **Güclü tərəfləri** | **Zəif tərəfləri** |
| **1** | **Müqayisə metodu**<br>Analoqu olan obyektin artıq bazar tərəfindən qiymətləndirilmiş və başa çatmış sövdələşmə haqqında informasiya əsasında | 1. Bazarda uyğun analoqa görə obyektin qiymətləndirilməsinə imkan verir<br>2. Milli sərvətin ayrı-ayrı tərkib hissələrinin qiymətləndirilməsi zamanı istifadə oluna bilər. | Uyğun analoqun tapılması imkanının olmaması səbəbindən milli sərvətin əksər tərkib elementlərini qiymətləndirməyə imkan verir. |
| **2** | **Xərclər metodu**<br>Obyektin yaradılması üçün insanların təsərrüfat fəaliyyətilə bağlı xərclərin hesablanması əsasında | 1. Əgər obyektin yaradılması xərcləri nisbətən sabitdirsə onun dəyərini qiymətləndirməyə imkan verir.<br>2. Milli sərvətin ayrı-ayrı tərkib elementlərinin qiymətləndirilməsi zamanı istifadə oluna bilər. | 1.Yalnız gələcəkdə özünü doğrultmaq (yəni xərcləri ödəmək) xərclərini nəzərə almaqla, bazarda tələb və təklif faktorlarını nəzərə almır.<br>2.Qeyri stabillik şəraitində bu metodun tətbiqi obyektin yaradılmasına çəkilən xərclərin cəmiyyət üçün lazım olması səbəbindən, bu metodla çox vaxt şişirdilmiş qiymətləndirmə əldə olunur. |
| **3** | **Gəlirlər-renta metodu**<br>Riskləri nəzərə almaqla qiymətləndirilən obyektin bütün istismar dövrü ərzində əldə edilən və gözlənilən gəlirlərin hesablanması əsasında | 1. Qiymətləndirilən obyektin tərkiblərinin nəticə və xərclərini nəzərə alımağa imkan verir.<br>2. Milli sərvətin əksər tərkib elementlərini daha obyektiv qiymətləndirməyə imkan verir. | 1. Bu metod gəlir və xərclərin proqnozlaşdırılmasına əsaslandığı üçün ehtimali xarakter daşıyır.<br>2.Bu metodla milli sərvətin həm artırılmış və həm də azaldılmış qiymətləndirilməsini almaq mümkündür. |
| **4** | **Bazar qiymətləndirilməsi** | Nisbətən obyektiv xarakterlidir. | |

**Şəkil 1. Müasir dövrdə milli sərvətin qiymətləndirilməsinin ümumi yanaşma metodları və onların qısa xarakteristikaları. Mənbə: Nəzəri və praktiki yanaşmalar əsasında müəllif tərəfindən tərtib olunmuşdur.**

Təhlil edilən dövrlərdə (1995, 2000, 2005-ci illər) və xüsusilə son 2005-ci ilin MS göstəricilərinə görə ABŞ (217,6 trlyn $), Yaponiya (70,1 trlyn $ ), Almaniya (45,1trlyn $), Böyük Britaniya (39,9 trlyn $), Fransa (35,7 trlyn $) və İtaliya (29,2 trlyn $) liderlik etmişdir. Bu ənənə müasir dövrədək qalmaqdadır və gəlir qrupları üzrə olan ölkələr arasında yüksək gəlirli İƏ və İT-nin üzvü olan ölkələr MS-lə bağlı bütün göstəricilərdə üstünlüyə malik olduğunu göstərmişlər. Adları qeyd edilən bu altı ölkə 1995-2005-ci illər, daha doğrusu 10 il ərzində MS-nin davamlı artımına nail olmuşlar. 1995-2005-ci illərdə dünya üzrə MS-nin 17% artımı müşahidə olunmuşdur.

DB-nin "Millətlərin dəyişən sərvətləri (CWON)" adlı nəşrləri adambaşına düşən sərvətin dəyişməsi və onun faydalılığını tətbiqi hesablamalarda nümayiş etdirdi. Onun qlobal rifah səviyyəsinin müəyyən edilməsi üzrə yerinə yetirdiyi işlər sırasında üçüncü məruzəsi 2018-ci ildə nəşr olundu. Bu nəşr "Millətlərin dəyişən sərvətləri Dayanıqlı Gələcəyin qurulması" (The Changing Wealth of Nations. Building a sustainable Future, 2018) adlanır [8]. Bu məruzədə 1995- ci ildən 2014-cü ilə

qədər olan dövrdə 141 ölkənin sərvət səviyyəsinin dəyişməsi öz əksini tapmışdır.

**Cədvəl 2**

**2000-ci ildə dünya ölkələrinin adambaşına milli sərvəti (neft hasil edən ölkələr istisna olmaqla)**

| Gəlirlərə görə ölkə qrupları | Adambaşına ABŞ dolları ilə | | | | %-lə | | |
|---|---|---|---|---|---|---|---|
| | Təbii resur-slar | İsteh sal kapi-talı | Qeyri-maddi aktivlər | Məcmu sərvət | Təbii re-surs-ların payı | İstehsal ka-pita-lının payı | Qeyri-maddi ak-tivl-ərin payı |
| Kasıb ölkələr | 1925 | 1174 | 4434 | 7532 | 26 | 19 | 68 |
| Orta gəlirli ölkələr | 3496 | 5347 | 18773 | 27616 | 13 | 19 | 68 |
| İqtisadi əməkdaşlıq və inkişaf təşkilatının yüksək gəlirli ölkələri | 9531 | 76193 | 353339 | 439063 | 2 | 17 | 80 |
| Dünya üzrə | 4011 | 16850 | 74998 | 95860 | 4 | 18 | 78 |

**Mənbə:** [5].

**Cədvəl 3**

**Dünyanın, ABŞ və Rusiyanın XXI əsrin əvvəllərində məcmu sərvətinin strukturu**

| Ölkələr | Milli sərvət trlyn $/%,% | O cümlədən, kapital növləri üzrə | | |
|---|---|---|---|---|
| | | İnsan kapitalı | Təbii kapital | Əsas və dövriyyə fondları |
| ABŞ | 24 | 18 ,5 | 4,6 | 0,9 |
| Rusiya | 60/100 | 30/50 | 24/40 | 6/10 |
| Dünya üzrə | 550/100 | 365/66,3 | 95/17,3 | 90/16,4 |

**Mənbə:** [4, s.64].

**Cədvəl 4**

**Dünyanın, ABŞ və Rusiyanın XXI əsrin əvvəllərində məcmu sərvətinin strukturu**

| Ölkələr | Milli sərvət trlyn $/%,% | O cümlədən, kapital növləri üzrə | | |
|---|---|---|---|---|
| | | İnsan kapitalı | Təbii kapital | Əsas və dövriyyə fondları |
| ABŞ | 24 | 18,5 | 4,6 | 0,9 |
| Rusiya | 60/100 | 30/50 | 24/40 | 6/10 |
| Dünya üzrə | 550/100 | 365/66,3 | 95/17,3 | 90/16,4 |

**Mənbə:** [4, s.64].

Qeyd edilən işdə TR-nin daha dəqiq hesablanması və ilk dəfə olaraq İK-nın toplanmasının qiymətləndirilməsi həyata keçirildi. Bu zaman ölkələr üzrə sərvətlərin qiymətləndirilməsi metodları MHS-nin konsepsiya və prinsiplərinə söykənərək, aktivlərin dəyərinin qiymətləndirilməsi aktivin qiymətinin mövcud olduğu bütün dövrdə istifadəsindən gözlənilən xalis daxil olmaların (resurs rentası və əmək haqqı) axınlarının diskontlaşdırılmış dəyərinə bərabərliyi kimi həyata keçirilmişdir. DB-nin bu hesabatda əvvəlkindən (2011-ci il) daha çox MS-nin istehsal və təbii kapital kimi tərkib hissələrinə diqqət edilmişdir.

Müasir dövrdə DB-nin ölkələrin MS-nin qiymətləndirilməsi üzrə sonuncu-dördüncü hesabatı 2021-ci ildə nəşr etdirdiyi "Millətlərin dəyişən sərvətləri: Gələcək üçün aktivlərin idarə edilməsi, 2021" (The Changing Wealth of Nations: Manacing Assets for the Future, 2021) adlanır [9]. Bu hesabat (CWON-2021) dünya ölkələrinin MS-də baş verən ən müasir ənənələri aşkarlamağa və ölkənin mövcud aktivlərilə onun gələcək inkişafı arasındakı əlaqəni aşkarlamağa imkan verir. Belə ki, ölkənin sərvətinin və onun tərkibinin vəziyyəti həmin ölkə üçün onun aktivlər portfelinin olub olmadığını və adambaşına düşən sərvətin dəyişməsi isə ölkənin gələcəkdə inkişaf potensialını

qiymətləndirmək üçün baza olduğunu göstərir. Sərvətin azalması ənənəsi ölkənin imkanlarının tükəndiyini və gələcək ÜDM-in artımını təmin edə bilməyəcəyi haqqında müəyyən fikir söyləməyə imkan verir. MS-lə ÜDM-in vəziyyətindən ölkənin dayanıqlı inkişafının səviyyəsi çox asılıdır. Çünki, ÜDM-i iqtisadi fəaliyyətin nəticəsi kimi, onun bir növ sərvətin geri qaytarılması nəticəsi olaraq qeyd etmək mümkündür. MS – iqtisadiyyatın uzun müddətli sağlamlığı, artımı, onun davamlı inkişaf qabiliyyəti haqqında məlumatı özündə əks etdirməklə, ölkənin malik olduğu aktivlərin köhnəlməsini və tükənməsini, eyni zamanda investisiyaların və aktivlərin yığılmasının sürətlə davam edib etmədiyini, sərvətin əhalinin artımı ilə müqayisəsini aşkarlamağa imkan verir.

**Nəticə**

CWON-2021-ə görə İK MS-nin tərkibinin əsas komponenti olmaqla, ölkə üçün təbii sərvətlərdən asılı olmadan gələcək iqtisadi axınları yaradan əsas aktiv hesab edilir. İK-nin ölçüsü yaxşı təhsilli və sağlam bir insanın, ölkə vətəndaşının əldə etdiyi iqtisadi faydaların təbii sərvətlərin dayanıqlı olmayan gəlirlərindən daha artıq olduğunu inkişaf edən ölkələrin adambaşına düşən MS-nin göstəricilərinin yüksək olması bir daha təsdiq edir. Beləliklə, DB-nin ölkələr və dünya üzrə qlobal sərvətlərin qiymətləndirilməsi üzrə son hesablamalardan belə nəticə çıxartmaq olur ki, aşağı gəlirli ölkələrin demək olar ki, əksəriyyətinin MS-i təbii kapitalın hesabına formalaşır. Amma, bu təbii kapitalı məqsədli idarə edən ölkələr inkişafın pillələrilə yuxarı qalxaraq, istehsal kapitalına, infrastrukturlara və "qeyri-maddi", o cümlədən İK-ya, təhsilə, yüksək innovasiya və texnologiyalara, həmçinin güclü institutlara və idarəetmə sisteminə daha çox investisiya yatırırlar.

## ƏDƏBİYYAT SİYAHİSİ:

1. Məmmədova, Ş.S. Milli sərvətin qiymətlndirilmə zərurəti, istiqamətləri və probemləri // - Bakı: AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası, - 2019. №6, - s. 34-41.

2. Камалова, А.А. Эффективное использование национального богатства России в условиях рыночной экономики: / Автореферат на диссертации кандидата экономических наук. / - Казань, 2009. - 18с.

3. Hamilton, K. Sustaining Economic Wefare: Estimating Changes in Total and Per Capita Wealth // - Washington Dc, Enviroment, Development and Sustainablility. - 2003. - vol5; Hamilton K., Hartwick J. Cit.op; Where is the Wealth of Nations?

4. Рассадин, Б.И., Хваджа, А.Н. Национальное богатство Российской Федерации – США // -Сервис Плус (service plus), - 2019. т. 13. №4, - с. 62-74. DOI:10.24411/2413-693x-2019-10408.

5. Hamilton, K. Sustaining Economic Wefare: Estimating Changes in Wealth Per Capita. / K. Hamilton. - November, 2000. - 28 p. URL: https: // htpp: documents. vsemirniyjbank. org/curated/ru/575961468739146017/pdf/ multipage.pdf.

6. Where is the Wealth of Nations? Measuring the capital for the 21st Century / [электронный ресурс] // Официальный сайт Всемирного банка - Washingtion; World Bank. 2006, - p.208. https://siteresources.worldbank.org/INTEEI/214578-111088625964/20748034/ All.pdf; P.XIV.-http: // iariw.org / papers / 2000 /

7. The changing Wealth of Nations: Measuring Sustainable Development in the New Millennium // Washingtion; - World Bank, - 2011, - 221p. URL: https: // siteresources. Worldbank. org /ENVIRONMEN / Resources /Changing Wealth Nations. pdf DOI: 10.1596/978-0-8213-8488-6

8. The Changing Wealth of Nations. Building a Sustainable Future // Washington: World Bank. 2018, - 235p, Официальный сайт Всемирного банка: worldbank.org. PDF

9. The Changing Wealth of Nations: Managing Assets for the Future // Washingtion; - World Bank, - 2021, - 460p. Официальный сайт Всемирного банка: worldbank.org. PDF

**Шафига Сафар кызы МАМЕДОВА**
Доцент кафедры мировой экономики и маркетинга Сумгаитского Государственного Университета

## ТРАДИЦИИ ОЦЕНКИ НАЦИОНАЛЬНОГО БОГАТСТВА В СОВРЕМЕННОМ ПЕРИОДЕ

**Резюме**

**Цель исследования.** Поскольку национальное богатство представляет собой совокупность материальных, духовных, природных и нематериальных благ, участвующих в процессах воспроизводства имеющихся у общества природных ресурсов, созданных обществом в течение всего периода исторического развития, то национальное богатство определяет силу и потенциальные возможности любой страны. В этом смысле большое значение имеет изучение ее правильной оценки на основе современных методов и традиций. В статье рассматриваются современные аспекты оценки национального богатства страны, в том числе оценка национального богатства Статистической комиссией ООН и Всемирным банком.

**Методы исследования** В качестве методов исследования использовался ряд научных методов, таких как анализ, мегасравнение, статистические, экономические обобщения. В то же время в этом направлении были обращены современные концепции международных организаций.

**Результаты исследования** могут быть полезны при регулировании макроэкономических процессов и социально-экономического развития в современное время, а также при оценке национального богатства страны в обеспечении устойчивого развития.

**Ключевые слова:** национальное богатство, оценка, национальное богатство на душу населения, метод, концепция Всемирного банка, изменение богатства наций.

**Shafiga Safar MAMMADOVA**
Associate Professor, Department of World Economy and Marketing,
Sumgait State University

## TRADİTİONS OF ASSESSİNG NATİONAL WEALTH İN THE MODERN PERİOD

**Summary**

**The purpose of the research**. Since national wealth is a set of material, spiritual, natural and intangible goods involved in the processes of reproduction of natural resources available to society, created by society during the entire period of historical development, national wealth determines the strength and potential capabilities of any country. In this sense, the study of its correct assessment on the basis of modern methods and traditions is of great importance. The article discusses modern aspects of assessing a country's national wealth, including the assessment of national wealth by the UN Statistical Commission and the World Bank.

**Research methods** – A number of scientific methods were used as research methods, such as analysis, mega-comparison, statistical, economic generalizations. At the same time, modern concepts of international organizations were turned in this direction.

**The results of the research** can be useful in regulating macroeconomic processes and socio-economic development in modern times, as well as in assessing the national wealth of the country in ensuring sustainable development

**Key words:** national wealth, assessment, national wealth per capita, method, World Bank concept, change in the wealth of nations.

**Daxil olub:** 02.05.2023